**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# BİRİNCİ DÜNYA MÜHARİBƏSİ İLLƏRİNDƏ AZƏRBAYCANDAKI TÜRK ƏSİRLƏRİ

İxtisas: 5502.01 – Ümumi tarix
Elm sahəsi: – Tarix

İddiaçı: **Yücel Cevdet oğlu Karauz**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq
üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2022**

Dissertasiya işi Bakı Dövlət Universitetinin Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| **Elmi rəhbər:** | AMEA-nın müxbir üzvü,<br>tarix üzrə elmlər doktoru, professor<br>**Musa Cəfər oğlu Qasımlı** |
| **Rəsmi opponentlər:** | tarix üzrə elmlər doktoru, professor<br>**Sevinc İsrafil qızı Əliyeva** |
| | tarix üzrə elmlər doktoru<br>**Telman Nüsrət oğlu Quliyev** |
| | tarix üzrə fəlsəfə doktoru, dosent<br>**Samirə Əbülfət qızı İmanova** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən ED. 2.20 Dissertasiya Şurası

| | |
|---|---|
| **Dissertasiya şurasının sədri:**<br>________________ | tarix üzrə elmlər doktoru, professor<br>**İbrahim Xudaverdi oğlu Zeynalov** |
| **Dissertasiya şurasının elmi katibi:**<br>________________ | tarix üzrə fəlsəfə doktoru, dosent<br>**Kəmalə Telman qızı Nəcəfova** |
| **Elmi seminarın sədri:**<br>________________ | tarix üzrə elmlər doktoru<br>**Lalə Cavid qızı Hüseynova** |

Azərbaycan Respublikası Təhsil Nazirliyi
BAKI DÖVLƏT UNİVERSİTETİ p.h.ş.
Ministry of Education of the Republic of Azerbaijan
Baku State University l.e.p.l.
ELMİ KATİB
SCIENTIFIC SECRETARY
İmzanı təsdiq edirəm:
Y.N.ƏLİYEVA
"12" mart 2022

# I.DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Məlum olduğu kimi, Qafqaz tarix boyunca özünün coğrafi, siyasi və strateji əhəmiyyətinə görə müxtəlif imperiyaların arasında rəqabət meydanı olmuşdur. Türk xalqları üçün isə bu bölgə xüsusi əhəmiyyət kəsb etmişdir. Tarixin ən qədim dövrlərindən bəri türk xalqlarının məskunlaşma arealına daxil olan Qafqaz orta əsrlərdən etibarən həm də Anadoluda və Mərkəzi Asiyada yaşayan türk xalqları arasında körpü rolunu oynamışdır. Son iki yüz il ərzində Qafqaz bölgəsi türk-rus nüfuz mübarizəsinin əsas məkanlarından və obyektlərindən biri olmuşdur. Qafqazın türk və müsəlman xalqlarının müdafiəsini həm Osmanlı dövləti, həm də Türkiyə Cümhuriyyəti dini və milli vəzifə olaraq qiymətləndirmişdir. Qafqazın müsəlman və türk əhalisinin əksər hissəsini təşkil edən azərbaycanlılar da Osmanlı dövlətinə və Türkiyə Cümhuriyyətinə müxtəlif çətin dövrlərdə yardımlar etməyi özlərinin həm dini, həm də milli vəzifələri hesab etmişlər. Bununla bağlı Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev deyirdi: *"Türkiyə ilə Azərbaycan arasında dostluq, qardaşlıq əlaqələrinin böyük tarixi var. Bu əlaqələr bir çox əsrlər boyu formalaşıb, inkişaf edib, bugünkü xoşbəxt günlərə gəlib çatıbdır. Xalqlarımızın eyni kökə, eyni dinə, eyni dilə mənsub olması, adət və ənənələrimizin bir-birinə bənzərliyi, yaxud eyniliyi, milli duyğularımızın bir-biri ilə oxşar olması – hamısı birlikdə əsrlərdən-əsrlərə xalqlarımızı bir, bərabər etmişdir, xalqlarımız arasında sıx dostluq, qardaşlıq əlaqələri yaratmışdır"*[1] .

Tədqiqatlar sübut edir ki, hələ XIX əsrdə müxtəlif müharibələr zamanı azərbaycanlılar Osmanlı Türkiyəsinə müxtəlif vasitələrlə kömək etməyə çalışmışlar. Bu, Türkiyədə "93 hərbi (müharibəsi)" adlandırılan 1877-1878-ci illər müharibəsi dövründə xüsusən özünü göstərmişdir. Osmanlı dövlətinin Balkan müharibələrində müxtəlif dövlətlər tərəfindən təklənməsinə də Azərbaycan xalqı səssiz

---

[1] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.6. – 1998. – s. 352.

qalmamış, müxtəlif formalarda Osmanlı Türkiyəsinə yardımlar göstərmişdir.

Azərbaycan xalqının Türkiyəyə bu cür yardımları həm Birinci Dünya müharibəsi illərində, həm də sonrakı dövrlərdə davam etmişdir. Türkiyə Cümhuriyyətinin qurucusu, böyük öndər Qazi Mustafa Kamal Atatürk bununla bağlı Azərbaycan SSR-in Türkiyədəki səfiri olmuş İbrahim Əbilova 1921-ci il oktyabrın 14-də ünvanlandığı məktubunda yazırdı: *"Türkün səadəti və məzlumların xilası yolunda Azərbaycan türklərinin də öz qanlarından keçməyə hazır olduqlarına dair bəyanatınız irticaçılara qarşı türkləri və məzlumları daha da ruhlandıran çox qiymətli bir fikirdir"* [2].

Məlumdur ki, Birinci Dünya müharibəsinin başlaması ərəfəsində çar Rusiyasının işğalı altında olan Qafqaz rus qoşunlarının Osmanlı Türkiyəsinin ərazisinə hücumları üçün əsas qərargah rolunu oynamışdır. Şərq (Qafqaz) cəbhəsində ələ keçirilən türk əsirlərinin ilk toplanış, karantin mərkəzləri və düşərgələri də məhz Cənubi Qafqazda, o cümlərdən Azərbaycan ərazisində yerləşirdi. Birinci Dünya müharibəsi illərində çar Rusiyasının müstəmləkəsi altında olan Azərbaycan əhalisinin Osmanlı Türkiyəsinə, o cümlədən Qafqaz cəbhəsində rus ordusu tərəfindən əsir alınmış türk əsirlərinə göstərdiyi münasibət isə təkcə Azərbaycan tarixinin deyil, ümumilikdə türk dünyası tarixinin ən mühüm səhifələrindən birini təşkil edir. O dövrdə baş verən proseslərin dərindən, tarixi tədqiqatlarda qəbul edilmiş elmi metodologiyanın prinsipləri ilə tədqiqi iki xalq və iki dövlət arasındakı münasibətlərin tarixi inkişafının qiymətləndirilməsi, Qafqazda maraqları toqquşan ayrı-ayrı dövlətlərin böhran dövrlərində bu həmrəyliyə zərbə vurulması üçün yürütdükləri siyasətin və istifadə etdikləri vasitələrin öyrənilməsi baxımından da aktualdır.

Dissertasiya işi yazılarkən müxtəlif dillərdə nəşr olunmuş əsərlərdən istifadə edilmişdir. Əsərlərin öyrənilməsindən aydın olur ki, Azərbaycan tarixşünaslığı ilə müqayisədə Türkiyə

---

[2] Atatürk'ün söylev ve demeçleri (1906 – 1938) / 5. Baskı, Ankara: Türk İnkılâp Tarihi Enstitüsü Yayınları, – c.2, – 2006. – s. 23-24.

tarixşünaslığında mövzunun ayrı-ayrı tərəfləri daha geniş şəkildə tədqiq olunmuşdur. Azərbaycanda Birinci Dünya müharibəsi illərində Nargin adasında əsir düşərgəsinin mövcud olması, burada türk əsirlərinin ağır şərtlər altında saxlanılması ilə bağlı ilk məlumatları üzə çıxaran şəxslərdən biri tədqiqatçı-jurnalist Şirməmməd Hüseynov olmuşdur[3]. Peşəkar tarixçilik nöqteyi-nəzərindən isə müasir Azərbaycan tarixşünaslığında məsələyə ilk dəfə olaraq elmi ictimaiyyətin diqqətini Musa Qasımlı cəlb etmişdir[4]. Müəllifin Birinci dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasətinə həsr etdiyi əsəri də dissertasiya mövzusunun müxtəlif aspektlərinin aydınlaşdırılması baxımından əhəmiyyətli əsərlər hesab oluna bilər[5].

2003-cü ildə yazıçı Qılman İlkinin "Türk ordusu Bakıda" adlı memuar xarakterli kitabı nəşr edilmiş[6], Akif Aşırlı 2012-ci ildə "Nargin adası" adlı kitabını nəşr etdirmişdir[7].

Ziya Bünyadovun "Qırmızı terror" kitabı Birinci Cahan Savaşı və müharibədən sonrakı ilk illərdə Osmanlı dövləti və Atatürk Türkiyəsi ilə yaxşı əlaqələri olmuş, o cümlədən türk əsirlərinin xilas edilmsəində müəyyən rol oynamış şəxslərin sonrakı talelərinin öyrənilməsi baxımından müəyyən məlumatları əks etdirir[8]. Xaqani Məmmədovun bir sıra monoqrafiyalarında dövrün hadisə və

---

[3] Aşırlı, A. Nargin adasında türk əsirləri / A.Aşırlı. – Bakı: Elm və təhsil, – 2011. – s. 9.

[4] Qasımlı, M. Azərbaycana gətirilmiş Osmanlı hərbi əsirlərinin taleyi // Ayna. – 2000, 2 avqust.

[5] Qasımlı, M., Azərbaycan parlamentarizmi tarixi: [2 cilddə] / M.Qasımlı, B.Muradova, V.Qafarov. – Bakı: Mütərcim, – c.1, – 2018. – 688 s.; Qasımov, M. Birinci dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti (1914-1918-ci illər): [3 hissədə]/ – Bakı: Qanun, – I hissə (1914-cü il avqust – 1917-ci il oktyabr). – 2000. – 300 s.; Qasımlı, M. Birinci Dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti (1914-1918-ci illər): [3 hissədə] / – Bakı: Adiloğlu, – II hissə (1917-ci il noyabr – 1918-ci il noyabr). – 2001. – 406 s.

[6] İlkin, Q. Türk ordusu Bakıda // Q.İlkin. – Bakı: AzATAM. – 2003. – 45 s.

[7] Aşırlı, A. Nargin adasında türk əsirləri / A.Aşırlı. – Bakı: Elm və təhsil, – 2011. – 112 s.

[8] Bünyadov, Z.M. Qırmızı terror / Z.M.Bünyadov. – Bakı: Qanun, – 2017. – 303 s.

prosesləri dərindən təhlil edilmiş, milli hərəkatın inkişafında aparıcı rol oynayan təşkilatların və şəxslərin rolu qiymətləndirilmişdir[9].

Tarix üzrə elmlər doktoru, professor Sevda Süleymanovanın həm 1999-cu ildə çap etdirdiyi "Azərbaycanda ictimai-siyasi hərəkat (XIX yüzilliyin sonu – XX yüzilliyin əvvəlləri)" adlı monoqrafiyasında[10], həm də 2003-cü ildə tarix elmləri doktoru elmi dərəcəsi almaq üçün təqdim etdiyi "Azərbaycanda ictimai-siyasi hərəkatın yaranması və inkişafı: (XIX əsrin sonu-XX əsrin əvvəli)" adlı dissertasiya işində[11] dövrün ictimai-siyasi mənzərəsini dərindən tədqiq etmişdir. O dövrdə türk əsirləri ilə bağlı fəaliyyətlər göstərən bir sıra təşkilatların, xüsusən müsəlman xeyriyyə cəmiyyətlərinin fəaliyyətlərinin əsas aspektlərinin öyrənilməsində müəllifin fundamental tədqiqatlarından dissertasiya işinin yazılması zamanı istifadə olunmuşdur.

İ.Hacıyev, A.İsgəndərli, N.Yaqublu, K.Nəcəfova, N.Qəhrəmanov E.Kəlbizadə, İ.Bağırova, L.Əliyeva[12] və başqa müəlliflərin əsərlərində də mövzunun müxtəlif tərəflərinə toxunulmuşdur.

---

[9] Məmmədov, X.M. Azərbaycan xalqının milli istiqlal mübarizəsi (XIX yüzilliyin sonları - XX yüzilliyin əvvəlləri) / X.M.Məmmədov. –Bakı: Elm, – 2005. – 249 s. Məmmədov, X.M. Azərbaycan milli hərəkatı: 1875- 1918-ci illər / X.Məmmədov. Bakı: Sabah, – 1996. – 175 s.; Məmmədov, X.M. Azərbaycanda maarifçilik və milli hərəkat (XIX yüzilliyin sonları-XX yüzilliyin əvvəlləri) /X. M.Məmmədov. – Bakı: M.Ə.Rəsulzadə adına Bakı Dövlət Universiteti, – 1998. – 310 s.

[10] Süleymanova, S.Y. Azərbaycanda ictimai-siyasi hərəkat (XIX yüzilliyin sonu – XX yüzilliyin əvvəlləri) / S.Y.Süleymanova. – Bakı: Azərbaycan Dövlət Kitab Palatası, – 1999. – 422 s.

[11] Süleymanova, S.Y. Azərbaycanda ictimai-siyasi hərəkatın yaranması və inkişafı: (XIX əsrin sonu-XX əsrin əvvəli): /Tarix elmləri doktoru dis./ – Bakı, 2003. – 367 s.

[12] Hacıyev, İ. Naxçıvanlı diplomatlar (Нахчыванские дипломаты) / İ.Hacıyev, E.Kəlbizadə. – Naxçıvan: Əcəmi, – 2017. – 128 s.; İsgenderli, A. Realities of Azerbaijan: 1917-1920 / A.Isgenderli. – USA: Xlibris Corporation, – 2011. – 234 s.; Yaqublu, N. Bakının qurtuluşu / N.Yaqublu. – Bakı: Adiloğlu, – 2008. – 256 s.; Yaqublu, N. Məhəmməd Əmin Rəsulzadə ensiklopediyası / N.Yaqublu. – Bakı: Kitab klubu, – 2013. – 506 s.; Yaqublu, N. Azərbaycan milli istiqlal mübarizəsi və Məhəmməd Əmin Rəsulzadə / N.Yaqublu. – Bakı, – 2001. – 154 s.; Yaqublu, N. Cumhuriyyət qurucuları / – Bakı: Nurlar, – 2018. – 504 s.; Yaqublu, N. Qafqaz İslam Ordusu və Nuru Paşanın Azərbaycanda izləri / N.Yaqublu. – Bakı: Adiloğlu,

Birinci Dünya müharibəsi illərində Azərbaycandakı türk əsirləri ilə bağlı Türkiyə tarixşünaslığında da bir sıra tədqiqatlar aparılmış, lakin bu tədqiqatlarda əsasən Türkiyədəki mənbələrdən və arxiv sənədlərindən istifadə edilmişdir. Eyni dövrə aid Azərbaycan, Gürcüstan və Rusiya arxivlərində saxlanılan sənədlər tədqiqata çox məhdud şəkildə cəlb edilmişdir. Mehmet Burak Durdunun "Kostamonu" jurnalında çap etdirdiyi "Kostamonu millət vəkili Xalid bəyin Rusiya və digər ölkələrdə qalan türk əsirləri ilə əlaqəli araşdırması" məqaləsində Nargin adasındakı türk əsirlərinin sayı, vəziyyəti və onların bir qisminin Azərbaycan əhalisinin köməyi ilə qaçırılması barədə məlumatlar verilmişdir.

Bu istiqamətdə Türkiyədə şəksiz ki, ən böyük tədqiqatlardan biri Cəmil Qutlunun 1999-cu ildə yazdığı "Birinci Dünya müharibəsindəki türk hərb əsirləri və onların Vətənə qayıdışı istiqamətində fəaliyyətləri" adlı doktorluq dissertasiyası olmuşdur[13] . Betül Aslanın 2000-ci ildə çap edilən "Birinci Dünya müharibəsi dövründə Azərbaycan türklərinin Anadolu türklərinə "Qardaş köməyi (yardımı)" və Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" adlı adlı əsərində də türk əsirləri və qaçqınlara dair müxtəlif mənbələrə əsaslanmaqla təhlillər aparılmış, Azərbaycanda əsirlərlə bağlı görülən işlər tədqiq

– 2012. –151 s.;  Qəhrəmanov, N. I Dünya müharibəsində erməni amili / – Bakı: E.L., – 2008, – 296 s.; Nəcəfova, K.T. Azərbaycan milli hərəkatında ziyalıların iştirakı (1905-1918-ci illər): /tarix üzrə fəls. doktoru diss. avtoref. / –Bakı, – 2015. – 29 s. Kelbizadeh, E., Karauz, Y. Kafkasyanın güvenliği ve Kafkas İslam Ordusu //Uluslararası Güvenlik Kongresi (kuram, yöntem, uygulama), – Ankara: YSGA, - 19-20 Eylül 2019, – 2019, – s.63-74; Kəlbizadə, E.H. Qərb dövlətlərinin siyasi maraqlarında Naxçıvan (1918-1920) / – Naxçıvan: III Regional Elmi Konfransın materialları, Naxçıvan:Əcəmi, – 2012. – s.31-34; Багирова, И. Политические партии и организации Азербайджана в начале XX века (1900-1917) / И.Багирова. – Баку: Елм, – 1997, – 336 с.; Əliyeva, L.A. Azərbaycan qadınları emansipasiya yollarında: 1918-1920. / L.A.Əliyeva. – Bakı: Ecoprint, – 2018. – 280 s.; Əliyeva, L.A. Azərbaycan qadınları millətlərarası və hərbi münaqişələrdə: 1905-1920 = Азербайджанские женщины в ситуации межнациональных и военных конфликтов: 1905-1920 / L.A.Əliyeva.  Bakı: Ecoprint, – 2018. – 268 s.

[13] Kutlu, C. Dünya Savaşında Rusya'daki Türk Savaş Esirleri ve bunların yurda döndürülmeleri faaliyetleri/ Basılmamış doktora tezi/ – Erzurum, – 1997, – 472 s.

və təhlil edilmişdir[14]. Türkiyəli tarixçi Cəmaləddin Taşkıranın “Birinci Dünya müharibəsində türk əsirləri” kitabında müxtəlif ölkələrin arxiv sənədlərinə, Qırmızı Xaç Cəmiyyətinin hesabatlarına, əsirlərin ailə üzvlərinə yazdıqları məktublara istinad edilməklə çar Rusiyasındakı türk əsirlərinin vəziyyəti tədqiq edilmişdir[15].

Ramazan Balcının “Tarixin Sarıqamış məhkəməsi” adlı əsərində türk əsirləri, əsir düşərgələri ilə bağlı məlumalar verilsə də, tədqiqatçının bölgənin tarixi coğrafiyasına və o dövrdə fəaliyyət göstərən siyasi təşkilat və liderlərə yaxından bələd olmaması onların adlandırılmasında ciddi qüsurlara yol verməsi ilə nəticələnmişdir. Məsələn, tədqiqatçı Xəzər dənizini – Qızıl dəniz kimi, azərbaycanlı həkim və siyasi xadimlər Nərimanov və Mahmudovu alman həkimlər kimi təqdim etmiş, Müsavat Partiyasını – Muhacat Partiyası kimi qeyd etmişdir [16].

E.Şahin, M.Akkor, S.Akgün, M.Uluğtekin, Y.Aslan, H.Bayur, İ.Soysal[17] və digər türk tədqiqatçılarının əsərlərində də Birinci Dünya

---

[14] Aslan, B. I Dünya savaşı esnasında “Azerbaycan Türkleri”nin “Anadolu Türkleri”ne “Kardaş Kömeği (Yardımı)” ve Bakü Müslüman Cemiyet-i Hayriyesi / B.Aslan. – Ankara: AYK, – 2000. – 396 s.

[15] Taşkıran, C. Ana ben ölmedim. I. Dünya savaşında türk esirleri / C.Taşkıran, –¬ İstanbul: Türkiye İş Bankası Yayın., – 2011, – 423 s.

[16] Balcı, R. Tarihin Sarıkamış duruşması /R.Balçı. – İstanbul: Nesil yayınları, – 2007. – 350 s.

[17] Şahin, E. Türkiye ve Mavera-yı Kafkasya ilişkileri içerisinde Trabzon ve Batum konferansları ve antlaşmaları (1917-1918) / E.Şahin. – Ankara: TTK, – 2002, – 818 s.; Akkor, M. I dünya savaşında çeşitli ülkelerdeki Türk esir kampları. Yüksek lisans tezi / M.Akkor. – Sakarya, – 2006. – 238 s.; Akkor, M. I. Dünya savaşı'nda Rusyada bulunan türk esirleri ve esir kampları / Uluslararası Türk Savaş Esirleri Sempozyumu Bildiri Kitabı, – 14-15 mart 2017, – İstanbul, – 2018. – s.203-238; Akgün, S. Birinci Dünya savaşı sonunda İskandinavya'dan Sibirya’ya Hilal-i Ahmer hizmetinde Akçuraoğlu Yusuf / S.Akgün, M.Uluğtekin. – Ankara: Türkiye Kızılay Derneği yayınları, – 2009. – 303 s; Aslan, Y. Türkiye Komünist Fırkası’nın Kuruluşu ve Mustafa Suphi / Y.Aslan. – Ankara: Türk Tarih Kurumu Basımevi, – 1997. – 401 s.; Bayur, H. Türk İnkılabı Tarihi /H.Bayur. – Ankara: TTK, – c.3, kısım 1, – 1983. – 521 s.; Bayur, H. Türk İnkılabı Tarihi / H.Bayur. – Ankara: TTK, – c.3, kısım 4, – 1991. – 878 s.; Soysal, İ. Tarihçeleri ve Açıklamalan İle

müharibəsi, Qafqaz cəbhəsi, türk əsirləri və onlarla bağlı aparılan beynəlxalq müzakirələrdən bəhs olunmuşdur. Tədqiqatların aparılması zamanı bir sıra ümumiləşdirilmiş əsər və ensiklopediyalardan da istifadə edilmişdir[18].

Alfina Sibqatullina "Rusiya qəzetlərinə görə Birinci Dünya müharibəsində əsir düşən türk əsgərləri" adlı məqaləsində Rusiyadakı əsirlərin müxtəlif dövrlərdə sayı, onların köçürülmə yolları ilə bağlı Rusiya imperiyasında nəşr olunan qəzet materialları əsasında məlumat vermişdir[19]. Bundan başqa V.Poznaxirev, E.Ludşuveyt, İ.Danilenko, İ.Obrazçov, N.Qalovin[20] və başqalarının əsərlərində də müharibə dövründə türk əsirləri ilə bağlı bir sıra məsələlərə toxunulmuşdur. Digər xarici ölkə tədqiqatçılarından D.Allen, P.Muratof, A.Benningsen, C.Lemercier-Quelquejay, Z.Tsurtsumianın mövzu ilə əlaqəli tədqiqatları vardır[21].

---

Birlikte Türkiye'nin Siyasal Antlaşmalan. I.Cilt (1920-1945) / İ.Soysal. – Ankara, – 1989. – 704 s.

[18] Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası: [2 cilddə] / – Bakı: Lider, – c. 1, – 2004. – 440 s.; Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası: [2 cilddə] / – Bakı: Lider, – c. 2, – 2005. – 472 s.; Azərbaycan tarixi: [7 cilddə] / – Bakı: Elm, – c.5 (1900-1920-ci illər). – 2008. – 696 s.

[19] Сибгатуллина, А. Жуткую картину представляют пленные турки... (материалы российской прессы 1914-1916 гг. О турецких военннопленных // Qara dəniz – Black sea – Черное море. – с. 9-24.

[20] Познахирев, В. Турецкие пленники в войнах России 1677-1917: / Автореферат диссертации на соискание ученой степени кандидата исторических наук/ – Курск, – 2012, – 24 с.; Лудшувейт, Е. Турция в годы первой мировой войны 1914 - 1918 гг.: военно-политический очерк / Е.Лудшувейт. – Москва: Изд-во Московского Университета, – 1966. – 386 с.; Даниленко, И. Военные усилия России в Мировой Войне / И.Даниленко, И.Образцов, Н.Головин. – Москва: Кучково поле, Серия: Российская военно-историческая библиотека, – 2001. – 440 с.

[21] Allen, D. Caucasian Battlefields. A history of teh wars on the Turco-Caucasian border. 1828-1921/ D.Allen, P.Muratoff. – Cambrige University Press, – 2010. – 614 p.; Benningsen, A. Sultan Galiyev-Üçüncü Dünyacı Devrimin Babası / A.Benningsen, C.Lemercier-Quelquejay. – İstanbul: Sosyalist yayınları, – 2005. – 417 s.; Tsurtsumia, Z. Gürcistan arşivlerine göre türk savaş esirleri (1914-1918) /

Kitabların öyrənilməsi göstərir ki, problem indiyədək Azərbaycan tarixşünaslığında öyrənilməmişdir və tədqiq edilməsi aktualdır.

Mövzu ilə bağlı mənbələr uzun illər ərzində toplanmış, qruplaşdırılmış və sistemləşdirilmişdir. Tədqiqatlar zamanı türk millətinin böyük öndəri Mustafa Kamal Atatürk və Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin, o cümlədən türk dünyasının böyük dövlət xadimlərinin çıxış, nitq, məktub və bəyanatlarından həm metodoloji, həm də tarixi mənbə olaraq istifadə edilmişdir[22].

Mövzunun tədqiqi ilə əlaqədar olaraq istifadə olunan mənbələri əsasən aşağıdakı kimi qruplaşdırmaq mümkündür:

1) Arxiv sənədləri problemin tədqiqi üçün ən mühüm mənbələr olub, mənbələrdə və tarixşünaslıq əsərlərində əksini tapmış məlumatların dəqiqləşdirilməsinə, şərh, müqayisəli və tənqidi təhlilinə, yeni məlumatların üzə çıxarılmasına imkan verir. Bu mənbələr sırasına Azərbaycan Respublikası Dövlət Tarix Arxivində (ARDTA), Türkiyə Cümhuriyyəti Baş Nazirliyinin Osmanlı Arxivində (BOA), Türkiyə Cümhuriyyəti Silahlı Qüvvələri Baş Qərargahının Hərbi Tarix və Strateji Tədqiqatlar Arxivində (ATASE) saxlanılan sənədləri aid etmək olar. Əsirlərin taleyinin öyrənilməsi üçün o dövrün rəsmi orqanları arasında aparılan yazışmalar fövqəladə əhəmiyyətə malikdir. Bəzi sənədlər müxtəlif illərdə dərc olunmuş toplulardan əldə edilərək tədqiqata cəlb olunmuşdur [23].

2) Mənbələrin digər qrupuna o illərdə dərc olunan jurnallar və qəzetlər daxildir. Azərbaycan ziyalılarının, Azərbaycan xalqının məsələyə yanaşmasını öyrənmək baxımından, eyni zamanda rəsmi sənədlərdə rus dövlət orqanların və təxribatçı erməni qruplarının

---

Uluslararası Türk Savaş Esirleri Sempozyumu Bildiri Kitabı, – 14-15 mart 2017, – – İstanbul, – 2018, – s. 319-358.

[22] Atatürk'ün söylev ve demeçleri (1906 – 1938) / 5. Baskı, Ankara: Türk İnkılâp Tarihi Enstitüsü Yayınları, – c.2, – 2006. – 335 s.; Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.6. – 1998. – 512 s.

[23] Türkiye Büyük Millet Meclisi, Zabıt Ceridesi / – Ankara: TBMM, – Cild XI, – 371 s.; Документы и материалы по внешней политике Закавказья и Грузии / – Тифлис: Типография Правительства Грузинской Республики, – 1919. – 514 с.

məqsədlərinə uyğun təqdim edilmiş informasiyaların müqayisəli təhlilinin aparılması üçün mətbu orqanlarda, məxsusi olaraq Azərbaycanda nəşr edilən "Açıq söz", "Tazə xəbər" "Hümmət", "Kaspi", "İqbal", "Bakineç", "Bakinskiy raboçiy" qəzetlərində, "Qardaş köməyi" jurnalında, Türkiyədə nəşr edilən "İstiklal", "Təsviri-əfkar", "İkdam" və s. qəzetlərdə dərc edilən publisistik yazılar və məlumatlar əhəmiyyətli olmuşdur.

3) Son illərdə Azərbaycan və Türkiyə mətbuatında mövzuya dair dərc olunan məqalələr də dövri mətubat materialları kimi təhlilə cəlb edilmişdir. Qeyd etmək lazımdır ki, Türkiyə mətbuatı Nargin adasında türk əsirləri barəsində xeyli sayda məqalələr çap etmişdir. "İstiqlal" qəzetinin 2007-ci il aprelin 3-də çıxan sayında Betül Vergülün "İlanlı Nargin", "Hürriyyət" qəzetinin 2008-ci il yanvarın 28-də dərc olunan sayında "Nargin şəhidlik olsun" məqalə-araşdırmasını, Azərbaycan Respublikasında "Ayna", "525-ci qəzet", "Kaspi" kimi mətbuat orqanlarında dərc edilən məqalələri xüsusi qeyd etmək lazımdır.

4) Mənbələrin digər bir qrupunu isə əsirlərin, ictimai-siyasi proseslərin iştirakçısı olmuş müxtəlif şəxslərin, eləcə də yazıçıların xatirələri təşkil edir. Bu cür mənbələrdə mövzuya daha çox şəxsi baxış bucağından yanaşılsa da, o illərdə baş verən proseslərin tam mənzərinin yaradılması üçün onlar əhəmiyyətlidir. Bu baxımdan qeyd olunduğu kimi, Azərbaycan yazıçısı Qılman İlkinin "Türk ordusu Bakıda" kitabında çox maraqlı məlumatlar verilmiş, türk əsirlərinə göstərilən köməkdən, kimsəsiz uşaqların yetimxanalara yerləşdirilməsindən, onların təhsilləri ilə bağlı görülən işlərdən bəhs edilmişdir.

Dissertasiya işinin yazılması zamanı azərbaycanlı ziyalılardan N.Keykurin, Ə.Əliyev[24], dövrün hərbi, ictimai və siyasi proseslərinin

---

[24] Keykurin, N. Nağıbəy Şeyxzamanlının xatirələri və istiqlaliyyət fədailəri / N.Keykurin. – Bakı: Təknur, – 2007. – 148 s.; Keykurun, N. Azerbaycan İstiklal mücadelesinin Hatıraları /N.Keykurun. – İstanbul: Azerbaycan Gençlik Derneği, – 1964, – 132 s.; Əliyev, Ə. Əlincə yaddaşı / Ə.Əliyev.– Bakı: Gənclik, – 1997. – 304 s.

iştirakçısı olmuş K.Qarabəkir, A.Cebesoy, M.Asaf, H.Atman, R. Başkatibzadə, M.F.Taşər, F. Ərdoğan, A.Gözə [25] və s. türk zabit və əsgərlərinin memuarlarında Azərbaycandakı əsirlərə dair faktlar təhlilə cəlb edilmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Birinci Dünya müharibəsi illərində Rusiya ordusu tərəfindən ələ keçirilmiş türk əsirləri, Azərbaycan əhalisinin, müxtəlif təşkilatların əsirlərlə bağlı xeyriyyəçilik və ictimai fəaliyyətinin tədqiqat obyekti olaraq müəyyənləşdirilmişdir. Tədqiqatın predmetini Birinci Dünya müharibəsi illərində Qafqaz cəbhəsində əsir alınaraq Azərbaycana gətirilmiş əsirlərin vəziyyətinin, bu dövrdə Azərbaycanda fəaliyyət göstərən müxtəlif təşkilatların və şəxslərin əsirlərlə bağlı fəaliyyətinin sistemli şəkildə öyrənilməsi, müharibədən sonrakı dövrdə əsirlərin sonrakı taleyinin araşdırılması təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin başlıca məqsədi Birinci Dünya müharibəsi illərində Azərbaycanda türk əsirlərinin, toplanış, karantin mərkəzləri və əsir düşərgələrinin vəziyyətinin, azərbaycanlıların Osmanlı dövlətinə və türk əsirlərinə münasibətinin və köməyinin sistemli və kompleks tədqiqidir. Bu

---

[25] Cebesoy, A. Moskova Hatıraları /A.Cebesoy. – Ankara: Kültür və Turizm Bakanlığı yayınları, – 1982. – 455 s.; Asaf, M. Volga kıyılarında ve muhtıra. Esaret hatıra ve maceraları /Yay. hazır. Murat Cebecioğlu /M.Asaf. – İzmir: Akademi kitabevi, – 1994. – 310 s.; Ataman, H. Esaret Yılları / – İstanbul: Türkiye İş Bankası yayınları, – 2011. – 448 s.; Ataman, H. Harp ve esaret. Doğu Cephesinden Sibiryaya/ – İstanbul: Türkiye İş Bankası Kültür yayınları, – 2011. – 464 s.; Başkatipzade, R. Tarih-i hayatım. Tahsi-harp-Esaret-kurtuluş anıları / R.Başkatipzade. – Ankara: Kebikeç yayınları, – 1996. – 155 s.; Cepheden cepheye, esaretten esarete (Ürgüplü Mustafa Fevzi Taşer'in hatıraları) / Yay. Haz. Eftal Şükrü Batmaz, – Ankara: Kültür Bakanlığı, – 2000. – 165 s.; Erdoğan, F. Türk ellerinde hatıralarım / F.Erdoğan. – Ankara: Türkiye Cumhuriyeti Kültür Bakanlığı Yayınları, – 1998. – 363 s.; Göze, E. Rusya'da üç esaret yılı: bir Türk subayının hatıraları /E.Göze. – İstanbul: Boğaziçi Yayınları, – 1991. – 109 s.; Karabekir, K. İstiklâl Harbimiz /K.Karabekir. – İstanbul: Merk yayincılık A.Ş., – 1988. –1215 s.; Karabekir, K. İstiklal Harbimizde Enver Paşa ve İttihat Terakki Erkanı / K.Karabekir. – Ankara: Tekin Yayınevi, – 1990. – 381 s.

məqsədə nail olmaq üçün qarşıya aşağıdakı konkret vəzifələr qoyulmuşdur:

- Problemə dair müxtəlif dillərdə olan ən mötəbər mənbə və ədəbiyyatı toplamaq, öyrənmək, sistemləşdirmək və təhlil etmək;
- Birinci Dünya müharibəsi illərində Qafqaz uğrunda Rusiya-Osmanlı mübarizəsinin səbəblərini və bu mübarizədə Azərbaycan xalqının yerini müəyyənləşdirmək;
- Birinci Dünya müharibəsi illərində Qafqaz cəbhəsində baş verən hadisələrin Anadolu türklərinin və azərbaycanlıların həyatına təsirini tədqiq etmək;
- Çar Rusiyası ərazisində, o cümlədən Qafqazda toplanış, karantin mərkəzlərinin və əsir düşərgələrinin coğrafiyasını müəyyənləşdirmək;
- Müharibə dövründə rus orduları tərəfindən ələ keçirilmiş türk əsirlərinin sayı və ayrı-ayrı əsir düşərgələrində vəziyyətini müqayisəli təhlil etmək;
- Azərbaycan ərazisindən əsirlərin Rusiya ərazisindəki digər düşərgələrə köçürülmə yollarını müəyyənləşdirmək;
- Qafqazdakı əsas əsir düşərgələrindən biri kimi Nargin adasının statusunu, adada saxlanılan əsirlərin sayını, milli, sosial, cins və yaş tərkibini, saxlanılma şəraitini tədqiq etmək;
- Birinci Dünya müharibəsi dövründə Azərbaycan əhalisinin türk əsirlərinə münasibətini tarixi mənbələrin faktları əsasında öyrənmək;
- O dövrdə Azərbaycanda fəaliyyət göstərən ictimai-siyasi təşkilatların və cəmiyyətlərin əsirlərlə bağlı həyata keçirdikləri fəaliyyəti tədqiq etmək;
- Azərbaycan əhalisinin Bakıda, Gəncədə və digər bölgələrdə qaçqınlara kömək məqsədi ilə həyata keçirdiyi tədbirləri araşdırmaq;
- Əsirlərin müxtəlif vasitələrlə əsirlikdən xilas edilməsinə və Anadoluya göndərilmə yollarının coğrafiyasını müəyyənləşdirmək;
- Türk əsirləri və qaçqınları ilə bağlı Azərbaycanda o dövrdə fəaliyyət göstərən mətbu orqanların informasiyalarını, məqalə və xəbərləri tarixi-faktoloji konteksdə təhlil etmək;

- Müharibədən sonrakı dövrdə əsirlərlə bağlı beynəlxalq hüquqi prosesləri, müzakirələri, çoxtərəfli və ikitərəfli müqavilələrin əsirlərə dair maddələrini təhlil etmək və razılaşmaların həyata keçirilmə prosesini öyrənmək;
- Həm müharibə illərində, həm də müharibədən sonrakı ilk illərdə cərəyan edən ictimai-siyasi proseslərin Azərbaycandakı türk əsirlərinə təsirlərini müəyyənləşdirmək;
- Türk əsirlərinin Azərbaycanın istiqlal mübarizəsində iştirakını tədqiq etmək;
- Türk əsirləri arasında aparılan bolşevik təbliğatının tarixini və məqsədlərini tədqiq etmək;
- Osmanlı Qırmızı Aypara Təşkilatının əsirlərlə bağlı gördüyü tədbirlərin Azərbaycandakı əsirlərə təsirlərini aydınlaşdırmaq;
- Digər ölkələrin və təşkilatların əsirlərlə bağlı fəaliyyətlərini təhlil etmək;
- Azərbaycanın o dövrdəki ictimai-siyasi və sosial-iqtisadi həyatını türk əsirlərinin xatirə və memuarlarındakı faktlar əsasında tədqiq və təhlil etmək.

**Tədqiqat metodları.** Təqdim olunan və tədqiqata cəlb edilmiş ilkin mənbələrin materiallarının və tədqiqatlardakı faktların, ümumiləşdirmələrin, mülahizələrin obyektiv təhlili dissertasiyanın metodoloji əsasını təşkil edir.

Tədqiqatların aparılması zamanı ümumi tarix metodlarından, o cümlədən müqayisəli təhlil, tənqidi təhlil, sistemi analiz, statistik metodlarıdan istifadə olunmuşdur. Mövzunun tarix-coğrafi tərəflərinin dəqiqliklə izah edilməsi üçün Nargin adası, Zığ burnu, Biləcəri stansiyası və əsirlərin saxlanıldığı bir sıra digər ərazilərdə çöl tədqiqatları da aparılmış, tarixi-coğrafi tədqiqatların xüsusi metodlarından istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Aparılan tədqiqatlar aşağıdakı müddəaların müdafiəyə çıxarılmasına imkan verir:

- Azərbaycan I dünya müharibəsi illərində karantin, müvəqqəti saxlanma və toplama mərkəzlərinin yerləşdiyi əsas ərazilərdən biri olmuşdur.

- Gəncə əsirlər üçün keçid stansiyası kimi, Biləcəri nəzarət nöqtəsi kimi, Naftluq əsirlərin çeşidlənmə və karantin məntəqəsi kimi, Zığ müvəqqəti saxlanılma və yola salınma məntəqəsi kimi, Nargin isə əsir düşərgəsi kimi fəaliyyət göstərmişdir.
- Xəstə əsirlərin saxlanıldığı düşərgənin məhz türk şəhəri olan Bakı yaxınlığındakı adada yerləşdirilməsinin yerli azərbaycanlı əhaliyə qarşı xüsusi məqsədlər güdmüşdür.
- Əsirlərin köçürülmə və qaçırılma yolları birxəttli olmamış, dövrün iqlim, ictimai-siyasi, hərbi şərtləri bu yolların dəyişməsinə təsir göstərmişdir.
- Azərbaycandakı türk hərbi və mülki əsirlərinə qarşı rus ordusundakı ermənilər tərəfindən qətllər və terror hərəkətləri törədilmişdir.
- Müharibədən sonrakı dövrdə Cənubi Qafqazda mübarizə aparan siyasi qüvvələr, xüsusən bolşeviklər əsirlərdən yararlanmaq üçün cəhdlər göstərmiş və bir çox hallarda buna nail olmuşlar.

**Tədqiqatın elmi yeniliyi.** Problemin qoyuluşu ona yanaşma, tədqiqi və alınan nəticələr elmi yenilik səciyyəsi daşıyır. Birinci Dünya müharibəsi illərində Qafqaz cəbhəsindəki döyüşlərdə ələ keçirilərək Azərbaycana gətirilmiş, burada çar Rusiyasının ən ağır şəraitli əsir düşərgələrindən biri olan Nargin adasında saxlanılmış türk hərbi və mülki əsirlərinin, bu əsirlərə Azərbaycan xalqının, ictimasi-siyasi təşkilatlarının münasibətinin və əsirlərlə bağlı fəaliyyətinin tədqiqi böyük əhəmiyyət kəsb edir. Qeyd etmək lazımdır ki, sovet dövründə uzun illər boyu ideoloji buxovlar səbəbindən mövzunun tədqiqinə qeyri-rəsmi qadağalar mövcud olmuşdur. Bir sıra hallarda isə bu tarix saxtalaşdırılmış və unutdurulmuşdur. Türkiyədə isə əsirlər haqqında məsələlər daha çox xatirələr səviyyəsində əksini tapmışdır. Yalnız XX əsrin 90-cı illərin sonlarında hər iki ölkədə bu mövzuya müəyyən dərəcədə diqqət yetirilsə də, müəyyən boşluqlar vardır. Araşdırma göstərir ki, müasir Azərbaycan və Türkiyə tarixşünaslığında bu boşluğun doldurulmasına ehtiyac duyulur.

Təqdim olunan dissertasiya işində tarixşünaslığında ilk dəfə olaraq “Birinci Dünya müharibəsi illərində Azərbaycandakı türk

əsirləri” mövzusu kompleks şəkildə ayrıca problem kimi elmi-nəzəri cəhətdən sistemli tədqiq olunmuşdur. Tədqiqat zamanı mövzuya dair ilkin mənbələr, o cümlədən geniş tarixi ədəbiyyat ətraflı araşdırılaraq aşağıdakı elmi yeniliklər əldə edilmişdir:

- 1914-1918-ci illər Rusiya-Osmanlı müharibəsinin Qafqaz cəbhəsində gedişi və Azərbaycana təsiri aydınlaşdırılmışdır[26];
- Azərbaycan ərazisindəki əsir düşərgələri, karantin, müvəqqəti saxlanma və toplama mərkəzlərinin coğrafiyası müəyyənləşdirilmiş, ilk dəfə olaraq Gəncə, Biləcəri, Naftluq, Zığ və Nargin məntəqələrinin statusu və fəaliyyət mexanizmləri müqayisəli təhlil edilmişdir. Müəyyən edilmişdir ki, Gəncə əsirlər üçün keçid stansiyası kimi, Biləcəri nəzarət nöqtəsi kimi, Naftluq əsirlərin çeşidlənmə və karantin məntəqəsi kimi, Zığ müvəqqəti saxlanılma və yola salınma məntəqəsi kimi, Nargin isə əsir düşərgəsi kimi fəaliyyət göstərmişdir[27];
- İndiyə qədərki tədqiqatlarda hesab olunurdu ki, xəstə əsirlərin saxlanıldığı düşərgənin Bakı yaxınlığındakı Nargin adasında yaradılması əsirləri xalqdan uzaq tutmaq üçün atılan addım idi. Tədqiqatlar nəticəsində ilk dəfə olaraq xəstə əsirlərin saxlanıldığı düşərgənin məhz müsəlman şəhəri olan Bakı yaxınlığında adada yerləşdirilməsinin yerli azərbaycanlı əhaliyə qarşı xüsusi məqsədlər güddüyü sübuta yetirilmişdir;
- Azərbaycandakı müxtəlif ictimai təşkilatların, qəzetlərin müharibəyə və əsirlərə münasibətini mötəbər mənbələr və faktlar əsasında təhlil edilmişdir[28];

---

[26] Karauz, Y., Kelbizadeh, E. Kafkasyanın güvenliği ve Kafkas İslam Ordusu //Uluslararası Güvenlik Kongresi (kuram, yöntem, uygulama), – Ankara: YSGA, - 19-20 Eylül 2019, – 2019, – s.63-74.

[27] Карауз, Ю. Остров Наргин как один из главных лагерей для пленных на Кавказе в годы первой мировой войны // – Москва: Вопросы Национальных и федеративных отношений, – 2019. – Выпуск 9(54), – Том 9, – с.1384-1397.

[28] Karauz, Y. Azerbaycan basınında türk esirleri // V Uluslararası Ağrı dağı ve Nuh'un gemisi Sempozyumu, – Erzurum: Zafer Medya, – 16-18 Ekim 2019, –2020, – s.506-518.

- Nargin adasının həbs düşərgəsi kimi seçilməsi həm də təhlükəsizlik tədbirləri ilə bağlı olmuşdur;

- Əsirlərin köçürülmə və qaçırılma yollarının tarixi coğrafiyası və istiqamətləri üzə çıxarılmışdır[29];

- Çar Rusiyasında dövlət və ictimai təşkilatların Azərbaycandakı türk əsirlərində münasibətdə yeritdikləri siyasət, onun səbəbləri və ümumi nəticələri araşdırılmış, tənqidi təhlillər aparılmış, hadisə və proseslərin əsl mahiyyətinin açılmasına cəhd göstərilmişdir;

- Azərbaycandakı türk hərbi və mülki əsirlərinə, Azərbaycanda əsirlərlə bağlı xeyriyyə fəaliyyəti göstərən təşkilat və şəxslərə qarşı rus ordusundakı ermənilərin qətllər və terror hərəkətləri törətdikləri faktik sənəd və materiallar əsasında sübuta yetirilmişdir;

- Əsirlərlə bağlı keçirilən konfransların, eyni zamanda imzalanan beynəlxalq müqavilələrdəki[30] əsirlərlə bağlı maddələrin Azərbaycandakı türk əsirləri üçün doğurduğu nəticələr araşdırılmış və ətraflı təhlil edilmişdir;

- Müharibədən sonrakı dövrdə Cənubi Qafqazda mübarizə aparan siyasi qüvvələrin, xüsusən bolşeviklərin əsirlərdən yararlanmaq cəhdləri tədqiq edilmiş və bunların Azərbaycan, eyni zamanda Türkiyə üçün doğurduğu nəticələr aydınlaşdırılmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işinin başlıca müddəaları və elmi nəticələri nəzəri və praktiki əhəmiyyət daşıyır. Tədqiqat işində əldə edilən yekun elmi nəticələr Birinci Dünya müharibəsi dövründə və müharibədən sonrakı ilk illərdə Osmanlı-Rusiya, Osmanlı-Azərbaycan Xalq Cümhuriyyəti, Türkiyə-RSFSR, Türkiyə-Azərbaycan SSR münasibətləri, Azərbaycan və bütövlükdə Qafqazın tarixi ilə bağlı tədqiqat işlərinin aparılmasında və ümumiləşdirilmiş əsərlərin yazılmasında istifadə oluna bilər.

---

[29] Karauz, Y. Azərbaycan və Nargin əsir düşərgəsi türk əsirlərinin xatirələrində // – Lənkəran: Elmi xəbərlər jurnalı, – 2019. – № 1, – s. 95-102.

[30] Karauz, Y., Paşa, E. Milli Mücadele döneminde esir kampları ve Balıkesir esir kampı //Kuva-yı Milli Şehri Balıkesir Uluslararası Sempozyumu, – Balıkesir: Kent Arşiv Yayınları, – 19-22 Eylül 2019, – 2020, – c. 1, – s.259-265.

Bundan əlavə dissertasiya işində irəli sürülən praktik təkliflər nəticəsində bir bir çox ərazilərdə əsirlərlə bağlı tarixi-memorial komplekslərin yaradılması, tarixi abidələrin olduğu ərazilərə turist marşrutlarının təşkil edilməsi mümkündür.

**Aprobasiyası və tətbiqi.** Dissertasiyanın əsas istiqamətləri məqalə və tezis şəklində müxtəlif elmi dərgilərdə, jurnallarda nəşr etdirilmişdir. Mövzuya dair müxtəlif ölkələrdə keçirilən simpozium və konfranslarda məruzələr edilmişdir. 2012-ci il noyabrın 2-5-i tarixlərində Bakıda “Qardaş köməyi” jurnalı və bəhs olunan dövrdə azərbaycanlıların türk əsirlərinə kömək fəaliyyətləri ilə bağlı keçirilən simpozumda “Qardaş köməyi” jurnalının fəaliyyəti barədə məruzə olunmuşdur. 2017-ci ildə Türkiyə Cümhuriyyətində təşkil edilən “Birinci Dünya müharibəsində Osmanlı-Rus döyüşləri” simpoziumunda və 2017-ci ilin 14-15 mart tarixlərində İstanbulda keçirilən “Türk müharibələri əsirləri” mövzusunda beynəlxalq simpoziumda iştirak və məruzə edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Bakı Dövlət Universitetinin Tarix fakültəsinin Elmi Şurası tərəfindən təsdiq olunmuş və Tarix fakültəsinin Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın həcmi.** Dissertasiya işi giriş, üç fəsil, on dörd yarımfəsil, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısı və əlavələr hissələrindən ibarət olmaqla cəmi 310 427 işarədir.

Tədqiqat işinin girişi 27310 işarədən ibarətdir. Birinci fəsil “Birinci dünya müharibəsi illərində Qafqaz uğrunda Rusiya-Osmanlı mübarizəsi və türk əsirləri” adlanır, üç yarımfəsildən ibarətdir və 90786 işarə həcmindədir. “Azərbaycan xalqının Qafqazdakı türk əsirlərinə münasibəti və fəaliyyəti” adlanan ikinci fəsil dörd yarımfəsildən ibarətdir və 113305 işarə həcmindədir. Dissertasiya işinin “Beynəlxalq münasibətlərdə və regional proseslərdə əsirlər məsələsi” adlanan üçüncü fəsli dörd yarımfəsilə bölünür və 64534 işarə həcmindədir. Nəticə hissədə əldə olunan əsas elmi nəticələr əksini tapmışdır və 14491 işarədən ibarətdir. Dissertasiya işinin sonunda cədvəl, şəkil, xəritə və illüstrativ materialları əks etdirən Əlavələr hissəsi vardır.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**"Giriş"**də mövzunun aktuallığı əsaslandırılmış, tarixşünaslıqda işlənmə dərəcəsi və mənbə bazası barədə məlumat verilmişdir. Tədqiqatın obyekti, predmeti, məqsəd və vəzifələri, işin yazılması zamanı istifadə olunmuş metodlardan bəhs olunmuşdur. Müdafiəyə çıxarılan əsas müddəalar və yeniliklər barədə məlumat verilmiş, tədqiqatın nəzəri və praktiki əhəmiyyəti əsaslandırılmışdır. Burada həmçinin işin aprobasiyası və tətbiqi, yerinə yetirildiyi təşkilatı adı, dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi göstərilmişdir.

**Dissertasiya işinin "Birinci dünya müharibəsi illərində Qafqaz uğrunda Rusiya-Osmanlı mübarizəsi və türk əsirləri"** adlı birinci fəslində Birinci Dünya müharibəsində Qafqaz cəbhəsindəki vəziyyət, Çar Rusiyası ərazisində əsir düşərgələri, əsirlərin köçürülmə yolları, türk əsirlərinin sayı və vəziyyəti tədqiq edilmiş, Nargin adasının əsir düşərgələri arasında yeri, statusu və əhəmiyyəti müəyyənləşdirilmişdir.

Bəşər tarixinin ən böyük fəlakətlərindən hesab edilən Birinci Dünya müharibəsində Osmanlı imperiyasının ən böyük rəqibi çar Rusiyası idi. Bu imperiyanın orduları ilə Osmanlı qoşunları həm Qafqazda – Şərq cəbhəsində, həm də Avropa cəbhələrində döyüşürdü. 1914-cü il oktyabrın 29-30-da alman admiralı Suşonun rəhbərlik etdiyi Osmanlı gəmilərinin Qara dənizdə çar Rusiyasının nəzarətində olan Sevastopol, Odessa, Feodosiya, Novorossiysk liman şəhərlərini bombalamasından və bir neçə rus gəmisini batırmasından sonra[31] 1914-cü il noyabrın 2-də çar Rusiyası Osmanlı dövlətinə rəsmi olaraq müharibə elan etdi.[32] Çar Rusiyası orduları Anadolunun

---

[31] Bayur, H. Türk İnkılabı Tarihi. – c.3, kısım 1, – 1983. s. 327-328; История Дипломатии / Под. ред. акад. В.Потемкина / – Москва-Ленинград: ГИПЛ, – т.2. – 1946. – с.271.

[32] I Dünya Harbinde Türk Harbi Kafkas Cephesi I. Ordu Harekatı / – Ankara, –c.2, – 1993, s. 100-101; Лудшувейт, Е. Турция в годы первой мировой войны 1914

şimal-şərq istiqamətində hücuma başladı. Osmanlı dövləti 1914-cü il noyabrın 14-də Sultan Rəşad tərəfindən "Fateh" camisində "Müqəddəs cihad" elan edilməsi ilə müharibəyə rəsmi olaraq qoşuldu[33].

Arxiv sənədlərində Rusiya məmurlarının, polis zabitlərinin yazışmalarında o dövr üçün məxfi sayılan məlumatlar da sübut edir ki, Azərbaycanda nəinki aşağı təbəqələr, hətta müəyyən imtiyaza malik milli elita, zadəgan təbəqəsi də Osmanlı dövlətinin qələbəsini arzulayırdı. Belə şəxslər Osmanlı dövləti ilə gizli əlaqələr saxlayırdılar. Çar Rusiyası Daxili İşlər Nazirliyinin Bakıdakı xəfiyyələrinin yazışmalarında da əhalinin Osmanlı Türkiyəsinə münasibəti ilə bağlı narahatlıqlar ifadə olunurdu[34].

Bütün bunlara baxmayaraq, Osmanlı ordusunun komandanlığı tərəfindən müharibənin əvvəllərində böyük ümidlərlə başladılan üç həftəlik Sarıqamış əməliyyatı ağır məğlubiyyətlə nəticələnmişdi. Bəzi mənbələrə görə, Osmanlı ordusunun bu əməliyyata cəlb olunmuş canlı qüvvəsinin yarısını (70-80 min nəfər), top, silah və sursatların, nəqliyyat vasitələrinin yarısından çoxunu itirdi.

Türkiyə tədqiqatçılarının əsərlərində təbii şərtlər səbəbindən şəhid olan Osmanlı əsgərlərinin sayının 30 mindən 90 minədək olduğu göstərilir. Rusiya mənbələrində isə Sarıqamış hərəkatında türklərin 11 min itki verdiyi, 3500 nəfərin isə əsir alındığı qeyd olunur. Türkiyə mənbələri Sarıqamışda əsir alınan türklərin sayının 7 min nəfər olduğu barədə məlumat verir.

---

- 1918 гг.: военно-политический очерк / Е.Лудшувейт. – Москва: Изд-во Московского Университета, – 1966. – с.62.

33 Bayan, İ. Birinci Dünya savaşında Osmanlı savaş esirleri ve Türk Kızılay Arşivinde bulunan eşir kartları / Uluslararası Türk Savaş Esirleri Sempozyumu Bildiri Kitabı, – 14-15 mart 2017, – İstanbul, – 2018, – s. 184; Bilinmeyen Tarihimiz: Cehennem Adası Nargin: [Elektronik kaynak] / Youtube. – 2018, 30 Nisan. URL: www.youtube.com/ watch?v=VIsbg06l4YU, – d. 6:30-6:38.

34 Şıxəliyev, E. İngiltərənin geosiyasi maraqlarında "erməni məsələsi"nin yeri və Azərbaycana təsiri (1917-1920). (Böyük Britaniyanın arxiv materialları əsasında) / E.Şıxəliyev, – Naxçıvan: Əcəmi, – 2016. – s.21.

Ordunun maddi və mənəvi itkilərindən əlavə, döyüş əməliyyatları gedən bölgələrin türk-müsəlman əhalisi də xeyli itkilər verdi. Bir çox kəndlər müharibə qaydalarına əsasən yandırılmış və ya xarabalığa çevrilmişdi. Rusların və onların havadarlıq etdiyi erməni quldur dəstələrinin zülmündən qurtarmaq üçün bir çox kəndlərin əhalisi yaşadıqları yerləri tərk edərək Osmanlı qoşunlarının nəzarətində olan Ərzuruma köçürdülər.

1917-ci ilin oktyabr-noyabr aylarından etibarən isə Qafqaz cəbhəsində vəziyyət dəyişdi. Belə ki, oktyabr ayında Rusiyada baş verən bolşevik çevrilişindən sonra 1917-ci il dekabrın 18-də Rusiya ilə Ərzincanda müharibənin bitməsi haqqında müqavilə imzalandı[35]. Vladimr İliç Leninin başçılıq etdiyi Rusiya Sovet Federativ Sosialist Respublikası hökuməti 1918-ci il martın 3-də İttifaq dövlətləri ilə Brest-Litovsk müqaviləsini imzaladı və müharibədən çıxdı.

Tədqiqatçı İsmet Görgülünün hesablamalarına görə, 1915-ci ilin aprelindən 1917-ci ilin mart-aprel aylarına qədər Şərq-Qafqaz cəbhəsindən 40 minə yaxın türk hərbiçisi Rusiyaya əsir düşmüşdü.[36] Bu saya 1914-cü ilin noyabr ayında Köprüköy döyüşlərində (7000 nəfər)[37], 1915-ci ilin yanvarında Sarıqamış əməliyyatında (15 min nəfər)[38] əsir düşənləri də əlavə etdikdə əsir düşənlərin sayı 63 minə çatırdı.

Arxiv sənədlərinin öyrənilməsindən məlum olur ki, Osmanlı dövləti ilə Çar Rusiyası arasında Qafqaz Cəbhəsində faktiki olaraq hərbi əməliyyatların başladığı 1914-cü il noyabr ayından etibarən əsir alınan türklər dərhal əsasən Rusiyanın daxili vilayətlərinə göndərilirdilər. Ruslar xüsusən müharibənin ilk günlərində və 1916-

---

[35] Uçarol, R. Siyasi tarih (1789-1999) / R.Uçarol. – İstanbul: Filiz kitabevi, – 2000, –s. 476-478; Qasımlı, M.C. Birinci Dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti (1914-1918-ci illər). – 2001. – s. 41.

[36] Görgülü, İ. On yıllık harbin kadrosu (1912-1922) / İ.Görgülü. – Ankara: TTK, – 1999. – s. 101-103.

[37] Belen, F. Birinci cihan harbinde Türk Harbi, 1914 yılı hareketleri / F.Belen. – Ankara: KKK Yayınları, – 1964. – s.135.

[38] Kurat, A. Türkiye ve Rusya / A.Kurat. – Ankara: Kültür Bakanlığı yayınları, – 1990, – s.279.

cı ilin yanvarında Ərzurum istiqamətində gedən döyüşlər zamanı əsirləri dərhal imperiyanın daxili vilayətlərinə göndərməyə çalışmışdılar. Lakin az sonra aydın oldu ki, döyüş meydanlarında müxtəlif cür xəstəliklərə yoluxma ehtimalı böyük olan hərbi əsirlərin dərhal imperiyanın daxili vilayətlərinə göndərilməsi yoluxucu xəstəliklərin yayılması və xeyli sayda əhalinin ölümünə səbəb ola bilər. Belə olan halda, Rusiya komandanlığı milli müstəmləkələrdəki, xüsusən Qafqazdakı müsəlman-türk əhalisinin məskunlaşdığı ərazilərdə toplanış, karantin mərkəzləri, nəzarət nöqtələri, müvəqqəti düşərgələr təşkil etdi. Bu adım atmaqda çar Rusiyasının iki məqsədi var idi. Bu məqsədlərdən birincisi karantin və düşərgə mərkəzlərində sağlam əsirlərin müəyyənləşdirilməsi, onların müvafiq gigyenik təmizlikdən keçdikdən sonra daxili vilayətlərə göndərilməsi idi[39]. Bakı şəhərinin o zamankı komendantının Rusiya Qırmızı Xaç Təşkilatının başçısı, çarın əmisi Aleksandr Petroviç Oldenburqskiyə göndərdiyi məlumatlar da sübut edir ki, əsasən aşağı rütbəli və xəstə əsirlər Bakıda vaqonlardan düşürülürdü[40].

Digər tərəfdən ruslara yaxşı məlum idi ki, azərbaycanlıların yaşadığı ərazilərə gətirən əsirlərlə yerli əhali müxtəlif vasitələrlə ünsiyyət qurmağa çalışacaqdır. Bu, türk, müsəlman olan Azərbaycan əhalisində hakimiyyətə qarşı nifrəti artıra bilərdi. Digər tərəfdən isə xəstə əsirlərin yoluxucu xəstəliklərinin yerli əhaliyə yoluxmasına səbəb olacaqdı.

Bununla əlaqədar olaraq Qafqazda üç yerdə əsas karantin mərkəzi yaradıldı. Mərkəzlərdən birincisi Sarıqamışın Hamamlı kəndində yerləşən karantin mərkəzi idi. İkinci mərkəz Qarsda yerləşən Satılmışgədik karantin mərkəzi, üçüncüsü isə Varasovski karantin mərkəzi idi. Bundan başqa müəyyən düşərgə və stansiyaların yaxınlığında kiçik karantin məntəqələri də (Zığ burnu) yaradıldı.

---

[39] Cepheden cepheye, esaretten esarete (Ürgüplü Mustafa Fevzi Taşerin hatıraları). – 2000. – s. 48.

[40] Qatarla gətirilən əsirlərin sayları (zabitlərin sayları) və sağlamlıqları barədə // Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, Fond № 46, siyahı № 7, iş № 179, vərəq – 40.

Düşərgə mərkəzləri Sarıqamış, Qars və Tiflisdə yerləşirdi. Nəzarət nöqtələri isə Rusiya imperiyasının 5 şəhərində təşkil edilmişdi. Bu şəhərlərdən də üçü Qafqazda yerləşirdi. Nəzarət nöqtələrinin təşkil edildiyi şəhərlər bunlar idi: Tiflis, Gəncə, Bakı (Biləcəri), Samara/Kuybişev və Penza.

Əsirlərin daşınması əsasən dəmiryolları vasitəsilə həyata keçirildi. Qafqazı Rusiyanın mərkəzi vilayətləri ilə birləşdirən dəmiryolu xəttinin keçdiyi marşrut Gümrüdən başlayır, daha sonra əsirləri daşıyan qatarlar Tiflis-Gəncə-Bakı xətti ilə hərəkət edərək Xəzər dənizinin sahilindən keçən xəttlə Dərbənd və Petrovska (Mahaçqala) çatırdılar. Petrovskdan etibarən dəmiryolu xətti sahildən şimal-qərbə, Qafqaz dağlarının şimalına doğru istiqamətlənir Qroznı və Armavirə doğru uzanırdı. Oradan dəmiryolu xətti Qafqazın Rusiyaya və Avropaya, Rusiyanın isə Qafqaza açılan qapısı hesab olunan Rostova çatır, burdan isə Rusiyanın daxili vilayətlərinə doğru hərəkət edirdi.

Təbii ki, Rusiya tərəfindən Qafqaz cəbhəsində əsir alınmış türk əsirlərinin saxlanılması üçün Qafqazın özündə də bir sıra əsir düşərgələri yaradılmışdır. Tədqiqatlar göstərir ki, bu düşərgələr Qars, Gümrü, Tiflis, İrəvan, Bakı (Nargin adası), Petrovsk, Stavropol, Armavir, Batum, Qori, Vladiqafqaz / Orconikidze, Maykop, Bielaritzenkaya və Tupsedə yerləşirdi[41].

Qafqaz cəbhəsindən minlərlə əsir daşıyan qatarlar Bakıya gəldikdə əsirlərin bir hissəsini burada qoyub digərlərini isə imperiyanın daxili şəhərlərinə aparırdı. Mənbələrdən aydın olur ki, Bakıya ilk əsirlər 1915-ci ilin əvvəllərində gətirilmişdi. Gətirilən əsirlərin çar Rusiyası əleyhinə fəaliyyət göstərə bilmək, eləcə də yerli azərbaycanlıların onlara rəğbətinin olmasını, çar hakimiyyətinə qarşı çıxa bilmək, məmurların onlara kömək edə bilmək ehtimalını təhlükəli hesab edən çar idarəçiliyi Biləcəri dəmiryolu stansiyasında

[41] Kutlu, C. I. Dünya savaşında Rusyadakı türk savaş esirleri ve bunların yurda döndürülmeleri faaliyetleri. –1997. – s.71.

nəzarətin təşkil edilməsi üçün yaradılan xüsusi heyətə bir nəfər də olsun azərbaycanlının adını daxil etməmişdi[42].

Bakıya gətirilən türk hərbi əsirlərinin əksəriyyəti isə yaşayış şərtləri çox ağır olan Bakı arxipelaqının ən böyük adası Böyük Zirə - Nargindəki əsir düşərgəsinə yerləşdirilirdilər. Qeyd etmək lazımdır ki, indiyə qədərki bir sıra tədqiqatlarda Nargin adasındakı düşərgə daha çox toplama mərkəzi kimi xarakterizə olunmuşdur[43].

Adadakı türk əsirləri çox ağır çətinliklər və məhrumiyyətlərlə gördükləri üçün öz xatirələrində buranı “Cəhənnəm adası” adlandırırdılar[44]. Hətta bu cür təsvirlərə o dövrün mətbuat səhifələrində də rast gəlinir[45]. Adada saxlanılan əsirlərin pis şəraitinə görə azərbaycanlı əhali tərəfindən isə bu ada “Kərbəla səhrası”, “Məqbər”, “Cəzirət-ül mort”, ilanları ilə məşhur olduğu üçün ”İlan adası” kimi müxtəlif adlarla adlandırılırdı[46]. Hətta adaya əsir düşərgəsində binaların inşası üçün gətirilmiş ilk türk əsirlərinin adadakı ilanlardan sonralar qida kimi istifadə etdiklərinə dair məlumatlara da rast gəlinir[47].

Nargin hərbi düşərgəsində əsirlərin qalması üçün taxtadan 40 ikimərtəbəli daxma (80 kamera) düzəldilmişdi. Hər kameraya 125 nəfər olmaqla Nargin əsir düşərgəsində ümumilikdə, 10000 əsirin

---

[42]Akt 05 yanvar 1915 // Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, Fond № 46, siyhı № 7, iş № 179, vərəq–7.

[43] Üner, M. Kafkas Cebhesi'nde Rusların eline düşen Türkler / M.Üner. Balıkesir Üniversitesi Sosyal Bilmler Enstitüsü, Yüksek Lisans Tezi. – Balıkesir, – 2012, – s. 55; Üner, M. Birinci dünya savaşında Kafkas cephesi'nde Ruslara esir düşen türk askerlerin yol boyunca ve kamplarda yaşadıkları sorunlar // Uluslararası Türk Savaş Esirleri Sempozyumu Bildiri Kitabı, – 14-15 mart 2017, – İstanbul, – 2018, – s. 241.

[44] Akkor, M. I dünya savaşında çeşitli ülkelerdeki Türk esir kampları. – 2006. – s. 133.

[45] Tesvir-i Efkar gaz./ 1334/1918, 10 iyun, – №: 2486.

[46] Sarıahmetoğlu, N. Neriman Nerimanov ve Nargin adasındaki esirler // Uluslararası Türk Savaş Esirleri Sempozyumu Bildiri Kitabı, – 14-15 mart 2017, – İstanbul, – 2018, – s. 271.

[47] Tunç, V. 1. Dünya Savaşında Rus Esir Kampı Nargin ya da Cehennemden kaçış, Deli İbo / V.Tunç. – Ankara: Sonçağ, – 2018. – s.53.

yerləşdirilməsi nəzərdə tutulmuşdu[48]. Hesablamalar göstərir ki, bu komalarda əsirlər üçün adam başına düşən istifadə sahəsi 4,5 $m^2$ idi.

Müxtəlif illərdə Nargin adasında saxlanılan türk əsirlərinin sayı 3000 nəfərlə 6000 nəfər arasında dəyişmişdir. Nargin adasındakı əsir düşərgəsində əsasən türk əsirlər saxlanılırdı. Lakin əsirlərin arasında alman, avstriyalı, macar, bolqar, alban, Suriya və İraq ərəbləri[49] də olmuşdur. Mənbələrdən aydın olur ki, çarizmin yerlərdəki məmurları təkcə türk əsirlərinə qarşı deyil, digər millətlərdən olan əsirlərə qarşı da qəddarcasına davranmışlar.

Düşərgənin barakları - daxmaları taxtadan hazırlanmışdı. Lakin heç bir daxmada döşəmə yox idi. Divarlar keyfiyyətsiz inşa edilmişdi, xarici təbii təsirlərə (yağış, külək, qar və s.) qarşı müqavimətsiz, örtüksüz və əhəngsiz idi. Bu səbəbdən şiddətli külək bu daxmaları qısa müddətdə zədələmiş, pəncərələrdə qırılan şüşələrin yerinə kağız və parça tıxanmışdı. Daxmaların damları iqlim şərtlərinə uyğun hazırlanmadığına görə yağış və şiddətli fırtınalar vaxtı yağış suları, qum içəriyə dolurdu. Yalnız bir mənbədə - Osmanlı ordusunun leytenantı Əhməd Əfəndinin xatirələrində Nargin adasında əsirlərin köhnə daş binaya yerləşdirildikləri ilə bağlı məlumata rast gəlinir[50].

Adada su mənbəyi olmadığı üçün bura su Bakıdan gəmilərlə gətirilirdi. Lakin su ilk növbədə rus qəhvəxanalarına və keşikçi rus əsgərlərinə verilirdi. Yalnız artıq qalan su əsirlərə paylanırdı. Belə olan halda bəzən bir neçə gün əsirlər susuz qalırdılar. Paylanan su gigiyenik olmadığı üçün əsirlər arasında bağırsaq xəstəlikləri də tüğyan edirdi.

Düşərgədəki daxmalardan (baraklardan) biri xəstəxanaya çevrilmişdi. 300-400 nəfərlik tutumu olan bu daxmada 1200 əsir "sanki bir-birinin üstündə balıq kimi yığılmışdı". Arxiv sənədlərində verilən məlumatlardan aydın olur ki, Nargin xəstəxanasında illik ölüm nisbəti 40% olmuşdur. Bunun əsas səbəblərindən biri

---

[48] Tunç, V. 1. Dünya Savaşında Rus Esir Kampı Nargin ya da Cehennemden kaçış... – s. 89.
[49] Göze, E. Rusya'da üç esaret yılı: bir Türk subayının hatıraları... – s.67.
[50] Yenə orada, – s.68.

xəstəxanada tibbi xidmətin aşağı səviyyədə göstərilməsi idi. Nargin xəstəxanasında rus və müttəfiq ölkələrin vətəndaşı olan əsir həkimlər olsa da, rus həkimləri xəstəxanadakı dərman çatışmazlığını bəhanə edərək işləmirdi.

Tədqiqatlar göstərir ki, Nargin adası əsir düşərgəsi kimi 1918-ci ilin sentyabr ayına qədər istifadə edilmişdir. 1918-ci il sentyabrın 15-də Qafqaz İslam Ordusunun Bakını azad etməsindən sonra adadakı müharibə əsirləri azad edilmişdir.[51] 1920-ci ilin apelində Azərbaycan Xalq Cümhuriyyətinin süqutunda sonra, xüsusilə 1920-1924-cü illər arasında isə Azərbaycanın müstəqilliyi uğrunda mübarizə aparan ziyalıların, Azərbaycanda qalmış və bolşeviklər tərəfindən həbs olunmuş türk zabitlərinin həbs edildiyi və öldürüldüyü yer olmuşdur.

**“Azərbaycan xalqının Qafqazdaki türk əsirlərinə münasibəti və fəaliyyəti”** adlanan ikinci fəsildə Azərbaycan əhalisinin əsirlərə münasibəti, Azərbaycan təşkilatları və onların əsirlərlə bağlı fəaliyyətləri, türk əsirlərinə kömək məqsədi ilə Bakı, Gəncə və digər şəhərlərdə həyata keçirilən tədbirlər, Əsirlərin taleyi məsələsi və Anadoluya göndərilmə yolları tədqiq edilmiş, dövrün Azərbaycan mətbuatında türk əsirləri ilə bağlı məlumatlara, türk əsirlərinin xatirələrində Azərbaycan və Nargin əsir düşərgəsi barədə yer almış məsələlərə toxunulmuşdur.

Çar Rusiyası məmurlarının da əvvəlcədən düşündükləri kimi türk əsirlərinin bu vəziyyətdə saxlanılması Azərbaycan əhalisi arasında böyük narahatlıq doğururdu. Xüsusilə, 1916-cı ildə Qafqaz cəbhəsindən gələn türk əsirlərinin vəziyyəti əhali arasında narazılıqlara səbəb olmuşdu. Azərbaycanlılar Nargin adasındakı əsirlərin vəziyyətləri ilə yaxından maraqlanır, istər qurulan yardım cəmiyyətləri vasitəsi ilə, istərsə də fərdi şəkildə imkanları daxilində maddi və mənəvi baxımdan kömək etməyə çalışırdılar.

Azərbaycan ziyalılarının fəaliyyət göstərdiyi qəzetlərin əksəriyyəti Bakıya gətirilən türk əsirlərinin sayı və statusu barədə

---

[51] Akkor, M. I. Dünya savaşı'nda Rusyada bulunan türk esirleri ve esir kampları. – 2018, – s. 212; Kutlu, C. I. Dünya savaşında Rusyadakı türk savaş esirleri... – 1997, – s. 92.

məlumatları dərc edirdilər. Bir sıra qəzetlər isə daha cəsarətli addımlar ataraq əhalinin Anadoludan gələnlərə kömək etməsi üçün çağırışlar dərc edirdilər.

Xüsusilə Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti və onun tərəfindən yaradılan Möhtaclara Kömək Cəmiyyəti bununla bağlı çox böyük işlər görürdülər. Bundan başqa Bakı Müsəlman Milli Komitəsi, Türk əsirlərinə yardım komitəsi, Qafqaz Müsəlman Tələbələri Cəmiyyəti, "Qardaş köməyi" təşkilatı, Müsəlman İnas (Qadınları) Xeyriyyə Cəmiyyəti, İrəvan Müsəlman Xeyriyyə Cəmiyyəti, Gəncə Milli Müsəlman Komitəsi, Gəncə Müsəlman Xeyriyyə Cəmiyyəti, Nicat Cəmiyyəti, Nəşr-i Maarif Cəmiyyəti, Səfa Cəmiyyəti kimi təşkilatlar xüsusilə seçilirdilər.[52]

Maraq doğuran məsələlərdən biri də bu dövrdə bolşevizmin Bakıda əsas dayaqlarından biri hesab edilən Bakı Fəhlə və Əsgər Deputatları Sovetinin Nargin adasındakı türk əsirləri ilə bağlı bir sıra tədbirlər həyata keçirməsidir. Lakin bu təşkilatın fəaliyyəti digər təşkilatların fəaliyyətindən məqsədlərinə görə fərqləndirilməlidir. Çünki, digər təşkilatların fəaliyyəti ümumtürk təəssübkeşliyindən, milli həmrəylik hisslərindən qaynaqlanırdısa, bu qurumun özünəməxsus xüsusi məqsədləri var idi.

Artıq qeyd edildiyi kimi, Qafqaz cəbhəsində əsir alınmış türk əsirlərinin böyük hissəsi Azərbaycandan keçməklə Rusiyanın müxtəlif bölgələrinə aparılırdı. Sarıqamışdan Tiflisə hərəkət edən qatarlar daha sonra Gəncədən keçərək Bakıya istiqamətlənirdi. Bu zaman əsirlərlə dolu qatarlar Gəncə stansiyasında saxlanılır, ölənlər stansiyada olan və bu işə məsul edilmiş şəxslərə verilirdi. Gəncə dəmiryolu stansiyasının yaxınlığında əsirlər üçün xüsusi xəstəxana da fəaliyyətə başlamışdı. Bu xəstəxananın açılmasında Gəncə şəhər

---

[52] Aslan, B. I Dünya savaşı esnasında "Azerbaycan Türkleri"nin "Anadolu Türkleri"ne "Kardaş Kömeği (Yardımı)" ve Bakü Müslüman Cemiyet-i Hayriyesi. – 2000, – s.170-184.

bələdiyyəsinin sədri, milli mücahid Xəlil bəy Xasməmmədov çox böyük zəhmətin hesabına Gəncə qubernatorunu razı salmışdı[53].

Qeyd etmək lazımdır ki, Lənkəran bölgəsi əsirlərin düşərgələrə daşınarkən qatarların keçdiyi bölgələrdən olmasa da əsirlərin vətənlərinə qaçırılması zamanı bu bölgənin əhalisi də xeyli fədakarlıqlar göstərmişdir. Lənkəran, Astara, Vərgədüz (indiki Yardımlı rayonu – Y.K.) əhalisi türk əsirlərinə hər cür qayğı göstərir, onların ehtiyaclarını qismən də olsa ödəməyə çalışırdılar.

Birinci Dünya müharibəsinin gedişi Azərbaycanda ictimai-siyasi şəraitə və proseslərə ciddi təsir etdi. Müharibə illərində Azərbaycan ziyalılarının apardığı iş nəticəsində ümumtürk həmrəyliyi gücləndi, milli qüvvələrin fəallığı artdı. Əsirlər və müsəlman qaçqınları ilə bağlı məlumatlara bu dövrdə nəşr edilən "Kaspi", "Açıq söz", "Hümmət", "İqbal", "İqdam", "Səda-yi Qafqaz", "Bakineç", "Baku" kimi qəzetlərin səhifələrində də rast gəlinir. 1915-ci ilin mart ayında Bakıda "Qardaş köməyi" adıyla sadəcə bir sayı dərc edilən qəzet nəşr edilmiş, qəzetin gəliri "hərbzadələr" - qaçqınlar faydasına istifadə olunmuş, Azərbaycan xalqı da köməyə dəvət edilmişdi[54]. 1917-ci ilin yanvarında Bakıda azərbaycanlı yazıçılar tərəfindən "hərbzadələrə" – müharibədə zərər çəkmiş şəxslərə kömək məqsədi ilə "Qardaş köməyi" adlı jurnalın nəşrinə başlamaq üçün qərar qəbul edildi. Yalnız bir nömrəsinin nəşri nəzərdə tutulan bu jurnal üçün Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti lazım olan icazəni alacaq və cəmiyyətin sədri Mirzə Əsədullayev jurnalın məsul redaktoru olacaqdı. 1917-ci ilin fevral ayında nəşri qərarlaşdırılan "Qardaş köməyi" jurnalını[55] bəzi səbəblərə görə ancaq 1917-ci ilin may ayında çap etmək mümkün oldu.

---

[53] Akkor, M. I dünya savaşında çeşitli ülkelerdeki Türk eşir kampları. – 2006. – s. 136; Kutlu, C. I. Dünya savaşında Rusyadakı türk savaş esirleri... – 1997. – s. 65.

[54] Aslan, B. I. Dünya savaşı əsnasında "Azerbaycan Türkleri"nin "Anadolu Türkleri"ne "Kardaş Kömeği (Yardımı)" ve Bakü Müslüman Cemiyet-i Hayriyesi. – 2000, – s.109.

[55] Qardaş Köməyi // – Bakı, – 1917. – s.1.

Fəslin sonuncu paraqrafında türk əsirlərindən Xəlil Ataman, Fəxrəddin Ərdoğan, Faiq Tonquç, Ziya Yergök, İsmayıl İrfan oğlu, Kayserili Mülazim Raqib Başkatibzadə, Əhməd İzzət Gözə, Hüseyn Həmid Hüsrebani, Hüsaməddin Tuğaç kimi əsirlərin xatirələri təhlil edfilmişdir.

Dissertasiyanın üçüncü fəsli **“Beynəlxalq münasibətlərdə və regional proseslərdə əsirlər məsələsi”** adlanır. Burada əsirlərlə bağlı beynəlxalq konfranslarda aparılan müzakirələr, Qırmızı Xaç Cəmiyyətinin və Hilali-əhmər təşkilatının fəaliyyətləri, Osmanlı dövlətinin Rusiya və Cənubi Qafqazda yaranmış yeni hakimiyyət orqanları ilə apardığı müzakirələrdə əsirlər məsələsi geniş şəkildə təhlil olunmuşdur. Təhlillər göstərir ki, Osmanlı dövlətinin Cənubi Qafqazdakı idarəçiliklərlə əldə etdiyi xüsusi razılaşmalara görə, tərəflərə mənsub olan döyüş əsirləri Batumdakı müzakirələrin başa çatmasını gözləmədən qarşılıqlı olaraq sürətli şəkildə dəyişdirilməli idi. Əsirlərin dəyişdirilməsi prosesinin Batumda həyata keçirilməsi nəzərdə tutulurdu və bu məqsədlə ikitərəfli komissiyanın yaradılması barədə qərar qəbul edildi. Bu müqavilənin imzalanmasından sonra 4-7 gün ərzində türk əsirləri Batuma gətirilməli və əsirlərin mübadiləsi maksimum dörd həftə ərzində başa çatmalı idi.Fəsildə həmçinin TBMM və Sovet Rusiyası arasında əsirlərlə bağlı müzakirələrə də diqqət yetirilmişdir.

Müzakirələrdə Rusiyanın Avropa hissəsi və Qafqazda olan əsirlər üçün üç aylıq, Asiya hissəsində (yəni Sibirdə) olanlar üçün isə altı aylıq  geri qaytarılma müddəti müəyyən edilmişdi.

Təhlillər göstərir ki, Birinci Dünya müharibəsi illərində bütün dünyada, eləcə də çar Rusiyasında cərəyan edən hadisələr Azərbaycanın milli mövqedə dayanan siyasətçiləri, ziyalıları, sahibkarlarında – milli elitasında müstəqil milli dövlət qurmaq arzularına inam yaradırdı. Bu məqsədlə geniş fəaliyyət planları həyata keçirilirdi. Bu cür fəaliyyət planlarına Osmanlı Türkiyəsi ilə geniş siyasi hərbi əməkdaşlığın qurulması da daxil idi. Hələ 1914-cü ilin əvvəlində Fətəli xan Xoyskinin qardaşı Aslan bəy Xoyski

Türkiyəyə gedərək, Cənubi Qafqazda Azərbaycan türklərinin yaradacaqları müstəqil cümhuriyyətə dəstək istəmişdi[56].

Rusiya hüdudlarında yaşayan müsəlman türklərin öz dövlətlərini qurmaq planları Osmanlı dövlətində siyasi-hərbi dairələrində müzakirə edilirdi. Birinci Dünya müharibəsinin əvvəllərində İttihad və Tərəqqi komitəsinin baş məsləhətçisi Ömər Nacinin təşəbbüsü ilə Cənubi və Şimali Azərbaycanın vahid dövlətdə birləşdirilməsi ideyası müzakirəyə çıxarılmış və bununla bağlı qərar qəbul olunmuşdu.

1918-ci ildə Azərbaycan tarixində çox böyük ictimai-siyasi hadisələr baş verdi, Azərbaycanın mövcud coğrafi məkanlarında, onun paytaxtı olan Bakıda bolşevik-erməni birləşmələri 31 mart soyqırımı törətdilər.

1918-ci il mayın 28-də İstiqlal bəyannaməsini elan edən Azərbaycan Xalq Cümhuriyyətinin qarşısında həlli müşkülə çevrilən çox məsələlər var idi. Onlardan ən vacibi Bakının bolşevik-daşnak birləşmələrinin nəzarətində olması idi. Mənbələrdən bəlli olur ki, əsirlikdən qaçırılmış 300 nəfər türk əsgər və zabiti Azərbaycanın istiqlal savaşında və Bakının azad olunmasında iştirak etmişdir[57].

Rusiyadakı digər əsirlər kimi, türk əsirlərini potensial bir qüvvə olaraq görən bolşeviklər 1917-ci il Oktyabr çevrilişindən sonra türk əsirləri arasında da bolşevizm və fəhlə-kəndli inqilabı ilə bağlı geniş təbliğat aparmağa başladılar. Bolşeviklər əsirlərdən həm daxili məsələlərin həllində istifadə edir, həm də sovet Rusiyasından kənardakı ölkələrdə gələcəkdə inqilabı həyata keçirəcək insanları əsirlərin arasında seçməyə çalışırdılar.

Aparılan təhlillərdən də aydın olur ki, özü bolşevik təbliğatının qurbanlarından biri olan Mustafa Sübhi digər türk əsirlərini də hər gün daha çox bu fəaliyyətə cəlb edirdi. Tədqiqatlar göstərir ki, çar Rusiyası süqut etdikdən sonra bolşeviklərin nəzarəti altında olan düşərgələrdəki türk əsirlər türk kommunistlərin rus kommunistlər ilə əməkdaşlıq etməsi nəticəsində düşərgələrdən çıxarılaraq ideoloji

---

56 Aşırlı, A. Nargin adasında türk əsirləri. – 2011. – s.9.

57 Yenə orada, – s.10.

məqsədlər üçün istifadə edilmişdir. Burada əsas məqsəd əsirlərin həyatının qurtarılması deyil, bolşeviklərin məqsədləri uğrunda onlardan istifadə edilməsi olmuşdur.

Mustafa Sübhi və onun komandasının əsas məqsədi Kazanda yaradılan Türk Qızıl Bölüyü ilə Rusiya vətəndaş müharibəsində kommunistlərin tərəfində iştirak edərək bolşevik inqilabına kömək etmək idi. Bakıda formalaşdırdıqları hərbi strukturun fəaliyyəti isə yalnız Türkiyə ilə bağlı idi.

Nəticədə tədqiqatların yekun müddəaları ifadə olunmuşdur.

Beləliklə, Birinci Dünya müharibəsi illərində Qafqazda üç yerdə əsas karantin mərkəzi yaradılmışdı ki, onların da ikisi azərbaycanlıların çoxluq təşkil etdiyi rayonlarda - Sarıqamış (Hamamlı) və Qarsda (Satılmışgədik) yerləşirdi. Türk əsirlərinin saxlanılması üçün Qafqazın özündə də bir sıra əsir düşərgələri yaradılmışdı. Tədqiqatlar göstərir ki, bu düşərgələr Qars, Gümrü, İrəvan, Bakı (Nargin adası) kimi tarixi Azərbaycan və türk şəhərlərində yerləşirdi.

Əsirlərin əksəriyyəti isə yaşayış şərtləri çox ağır olan Bakı arxipelaqının ən böyük adası Böyük Zirə - Nargindəki əsir düşərgəsinə yerləşdirilmişdilər. Mənbələrin öyrənilməsindən aydın olur ki, Azərbaycanın müxtlif bölgələrinə ilk əsirlər 1914-cü ilin noyabrından etibarən, əsas əsir düşərgəsinin yerləşdirildiyi Bakıya – Nargin adasında isə 1915-ci ilin əvvəlindən etibarən gətirilmişdi. Nargin əsir düşərgəsində ümumilikdə, 10000 əsirin yerləşdirilməsi nəzərdə tutulmuşdu. Müxtəlif dövrlərdə Nargin adasında saxlanılan türk əsirlərinin sayı 3000 nəfərlə 15000 nəfər arasında dəyişmişdir.

Müxtəlif düşərgələrdə, xüsusən Nargin adasında türk əsirlərinin ağır vəziyyətdə saxlanılması azərbaycanlılar arasında böyük narahatlıq doğurmuş, narazılıqlara səbəb olmuşdu. Bütün çətinlik, təzyiq və qadağalara baxmayaraq, azərbaycanlılar türk əsirlərin vəziyyətləri ilə yaxından maraqlanmış, istər qurulan yardım cəmiyyətləri vasitəsi ilə, istərsə də fərdi şəkildə əllərindən gəldiyi qədər maddi və mənəvi cəhətdən kömək etməyə çalışmışdılar.

Qafqaz cəbhəsində əsir alınan türklərin Bakıya gətirilmə prosesi başladıqdan sonra əsirlərə yardım etmək, onların vətənlərinə

dönməsinə köməklik göstərmək, kimsəsiz uşaqlara, ahıllara və xəstələrə kömək əlini uzatmaq üçün bir sıra təşkilatlar yaradılmış, əvvəlcədən mövcud olan bəzi təşkilatlar isə öz fəaliyyətlərini bu istiqamətdə qurmağa başlamışdılar.

Müharibə illərində və müharibədən sonrakı dövrlərdə Rusiyada, o cümlədən Azərbaycanda olan türk əsirləri ilə bağlı məsələ müxtəlif beynəlxalq konfranslarda, ikitərəfli danışıqlarda müzakirə mövzusu olmuş, imzalanan müqavilələrdə əksini tapmışdır. Stokolm, Trabzon, Batum, Moskva, Qars konfranslarda, Osmanlı dövləti ilə Cənubi Qafqazda yaranmış müxtəlif idarəçiliklər, TBMM hökuməti ilə bolşevik Rusiyası arasında aparılan danışıqlarda əsirlərin statusu, dəyişdirilməsi və geri qaytarılması ilə bağlı gərgin müzakirələr aparılmışdır. Brest-Litovsk, Batum, Moskva və Qars müqavilələri Azərbaycanda olan əsirlərin taleyi ilə bağlı xüsusən əhəmiyyətli olmuşdur.

1917-ci il fevral inqilabı nəticəsində çar Rusiyasının süqutu, bolşeviklərin Oktyabr çevrilişi, Cənubi Qafqazda yeni idarəçiliklərin, daha sonra isə müstəqil dövlətlərin yaranması, Bakının işğaldan azad edilərək Azərbaycan Xalq Cümhuriyyətinin paytaxtı elan edilməsi kimi ictimai-siyasi proses və hadisələr əsirlərin taleyinə ciddi təsir göstərmişdir.

I Dünya müharibəsi illərində Azərbaycandakı türk əsirləri mövzusunun tədqiqi bir sıra praktiki təkilflər irəi sürməyə də imkan verir:

1. Müharibə illərində əsirlərin saxlanıldığı ən ağır şəraitli əsir düşərgələrindən olan Böyük Zirə - Nargin adasında tarixi memorial kompleksin yaradılması.
2. Adadakı əsirlərə xüsusi kömək göstərmiş təşkilatlar və şəxslərin adlarının adadakı küçələrə verilməsi, onların adlarını əbədiləşdirən abidələrin qoyulması.
3. Əsirlərin Azərbaycan ərazisində daşınma yolları üzərində əsas məntəqələrdə abidələrin, xatirə-baralyef lövhələrinin qoyulması və Türkiyə Cümhuriyyətinin Ərzurum və Qars şəhərlərindən başlamaqla Bakıya – Nargin adasında qədər davam edən tur xəritələrinin hazırlanması.

4. Şəcərə cəmiyyətləri tərəfindən Azərbaycanda qalmış türk əsirlərinin sonrakı nəsillərinin müəyyənləşdirilməsi və onların nümayəndələrindən ibarət Azərbaycan-Türkiyə qardaşlıq cəmiyyətlərinin və fondlarının qurulması.

5. Ermənilərin müharibə dövründə xüsusən türk əsirlərinə qarşı rus ordusunun da imkanlarından istifadə etməklə törətdikləri qətliamların dərindən öyrənilməsi və dünyaya tanıdılması.

Nəhayət, hesab edirik ki, araşdırılan mövzunun ayrı-ayrı istiqamətləri gələcəkdə digər tədqiqatçıların diqqətini cəlb edəcək və o istiqamətlərin araşdırılması tarix elmimizin daha da zənginləşməsinə, Türkiyə-Azərbaycan əlaqələrinin tarixi hadisələr konteksində daha da möhkəmlənməsinə töhfə verəcəkdir.

**Dissertasiyanın əsas mövzusu müəllifin aşağıdakı elmi məqalə və tezislərində öz əksini tapmışdır:**

- Azərbaycan mətbuatında türk əsirləri // – Bakı: Filologiya məsələləri, – 2013. №2, – s.449-455.
- Yolu Bakıdan keçərkən tarix yazanlar // – Bakı: Filologiya məsələləri– 2013. № 3, – s.473-478.
- Деятельность Кавказской Исламской армии на Южном Кавказе в 1918 году// – Bakı: Tarix və onun problemləri. – 2013. №3, –s.69-71.
- "Qardaş kömeyi" dergisi // – Bakı: Filologiya məsələləri, – 2013. № 4, –s.435-441.
- Müharibə əsirləri ilə əlaqədar 1918-ci ildə əldə edilən razılaşmalar // – Bakı: Filologiya məsələləri, – 2016. №2, – s.357-361.
- Azərbaycan və Nargin əsir düşərgəsi türk əsirlərinin xatirələrində // – Lənkəran: Elmi xəbərlər, – 2019. – № 1, – s. 95-102.
- Kafkasyanın güvenliği ve Kafkas İslam Ordusu // Uluslararası Güvenlik Kongresi (kuram, yöntem, uygulama), – Ankara: YSGA, – 19-20 Eylül 2019, – 2019, – s.63-74.
- Остров Наргин как один из главных лагерей для пленных на Кавказе в годы первой мировой войны // – Москва:

Вопросы Национальных и федеративных отношений, – 2019. – Выпуск 9(54), – Том 9, – с.1384-1397.

- Türk əsirlərinin xatirələrində Azərbaycan (1914-1918) // – Bakı: Sivilizasiya, – 2019. – s.146-153 .
- Nargin adasındaki türk esirleri Azərbaycan mətbuatında (1915-1917-ci illər // – Bakı: Tarix və onun problemləri. – 2019. 3, – s. 368-373.
- Azerbaycan basınında türk esirleri / V Uluslararası Ağrı dağı ve Nuh'un gemisi Sempozyumu, – Erzurum: Zafer Medya, – 16-18 Ekim 2019, – 2020, – s.506-518.
- Milli Mücadele döneminde esir kampları ve Balıkesir esir kampı /Kuvayı Milli Şehri Balıkesir Uluslararası Sempozyumu, – Balıkesir: Kent Arşiv Yayınları, – 19-22 Eylül 2019, – 2020, – c. 1, – s.259-265.
- "Qardaş köməyi" məcmuəsi azərbaycanlıların Osmanlı Türkiyəsinə yardımlarına dair mənbə kimi // "Qafqazda dövlətlərarası münasibətlər: 100 il əvvəl /Azərbaycan Xalq Cumhuriyətinin 100 illiyinə həsr olunmuş beynəlxalq elmi konfrans. – Bakı: Mütərcim, –2018, – s.142-145.
- Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyətinin bütün ölkə ərazisində bərqərar edilməsində türk əsirlərinin iştirakı // Cənubi Qafqazda ərazi-sərhəd problemləri: Qars müqaviləsindən Şuşa bəyannaməsinə. Respublika elmi konfransı, – Bakı: Mütərcim, – 23 sentyabr 2021, – 2021, – s.114-116.

Dissertasiyanın müdafiəsi 29 aprel 2022-ci il tarixində saat 14.00-da Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən ED 2.20 Dissertasiya Şurasının iclasında keçiriləcək.

**Ünvan:** AZ 1148, Bakı şəhəri, akademik Zahid Xəlilov küçəsi, 23

Dissertasiya ilə Bakı Dövlət Universitetinin Elmi kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Bakı Dövlət Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 28 mart 2022-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 14.03.2022
Kağızın formatı: 60×84 16/1
Həcm: 44.412
Tiraj: 100